

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 43 (23.205)

1 mart 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev səfərin və aparılan müzakirələrin ölkəmizlə bu təsisat arasında əməkdaşlıq və dialoqun inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.

Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana səfər çərçivəsində məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlərin nümunəvi olduğunu bildirib.

Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və münaqişənin həlli prosesi barədə danışıb.

Görüşdə, həmçinin Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## Muxtariyyətin 95 illiyinə həsr olunmuş elmi konfrans keçirilib

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.*



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. Naxçıvan Muxtar Respublikası Ali Sovetinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş üçrəngli bayraq qaldırılıb, dövlət atributları müəyyən edilib. Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılıb. Rektor məhz 1991-ci il sentyabrın 3-də görkəmli dövlət xadiminin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsini müasir Azərbaycanın inkişafının bünövrəsi kimi qiymətləndirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvanın muxtariyyətləşməsi" mövzusunda çıxış edərək 1924-cü il fevralın 9-da dövlətçilik tariximizdə baş vermiş mühüm hadisədən – Naxçıvan Muxtar Respublikasının yaranmasından danışıb. Akademik Naxçıvana Azərbaycanın ayrılmaz bir hissəsi kimi muxtariyyət statusu verilməsində Behbud ağa Şahtaxtinskinin fəaliyyətinin əhəmiyyətini qeyd edib. Bildirib ki, Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ olan Moskva və Qars müqavilələrinin bağlanmasında Şahtaxtinskinin böyük xidmətləri olub.

2019-cu il yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq olunduğunu konfrans iştirakçılarının diqqətinə çatdıran akademik vurğulayıb ki, 95 illik tarix muxtariyyətin şərəfli inkişaf dövrüdür. Akademik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikanın 20 ildən artıq bir dövrdə hərtərəfli inkişafa nail olduğunu bildirib və qeyd olunub ki, hazırda Naxçıvan özünün çiçəklənmə dövrünü yaşayır.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Xəzər Hüseynovun "Naxçıvan Muxtar Respublikasının səhiyyəsi (1945-1960-cı illər)" adlı məruzəsindən sonra konfrans bölmə iclasları ilə işini davam etdirib.

**Səadət ƏLİYEVA**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2019-cu ilin fevral ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli qərarları ilə Naxçıvan Muxtar Respublikasında 2019-cu il yanvarın 1-nə torpaqların növləri, istifadəçiləri və mülkiyyətçiləri üzrə torpaq balansı təsdiq edilmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin yaradılması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilmişdir.

Nazirlər Kabinetinin 2019-cu il 21 fevral tarixli qərarları ilə "İdman mərc oyunlarının həyata keçirilməsi məqsədi ilə hüquqi şəxsin akkreditasiya olunması Qaydası"nın və "İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 avqust tarixli 80 nömrəli və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun və qanunvericiliyə uyğun olaraq tətbiq edilən cərimələrdən daxil olan vəsaitin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 noyabr tarixli 113 nömrəli qərarlarında dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli Qərarı ilə "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 dekabr 1993-cü il tarixli 636 saylı qərarı barədə" 1994-cü il 2 fevral tarixli 25 nömrəli və "Meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 145 nömrəli qərarı barədə" 2004-cü il 13 oktyabr tarixli 129 nömrəli qərarlarına və 2019-cu il 27 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nda dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Daşınmaz əmlak obyektlərinin pasportlaşdırılması başa çatdırılıb

Ağbulaq kəndində torpaq sahələrinin ölçülərinin dəqiqləşdirilməsi başa çatdırılmış, 157 daşınmaz əmlak obyekti plana alınaraq kəndin yeni yerquruluşu xəritəsi hazırlanmışdır. Torpaq sahələrinin hüquqi və texniki sənədlərindəki məkan göstəriciləri ilə faktiki istifadə vəziyyəti arasındakı mövcud uyğunsuzluqlar müəyyənləşdirilmiş, qanunvericiliyə uyğun aradan qaldırılmışdır. Tikililərin kütləvi texniki inventarlaşdırılması aparılmış və pasportlaşdırılması üçün ölçülər dəqiqləşdirilmişdir. Komitənin səyyar xidmət qrupu tərəfindən texniki sənədlərin hazırlanması və mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması üçün yaşadıqları ərazidə vətəndaşların müraciətləri qəbul edilmişdir. Artıq Ağbulaq kəndində tikililərin pasportlaşdırılması tam başa çatdırılıb.

Dünən Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin səyyar xidmət qrupu yeni hazırlanmış mülkiyyət sənədlərini kənd sakinlərinə təqdim edib. 65 fərdi yaşayış evinin mülkiyyətçisinə hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilib, yardımçı tikililər inventarlaşdırılıb.

Qeyd edək ki, kənddə aparılan kompleks quruculuq işlərinin davamı, vətəndaşlara göstərilən dövlət qayğısının daha bir ifadəsi olaraq kənd sakinlərinə məxsus daşınmaz əmlak obyektləri üzərində mülkiyyət hüquqlarının ilkin qeydiyyatı və inventarlaşdırılması tamamilə dövlət hesabına həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada əhalinin dinamik artımı davam edir



Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır" prinsipi əsas götürülərək əhalinin səmərəli məşğulluğu və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər ümumi inkişafın təmin olunmasına şərait yaratmaqla yanaşı, demoqrafik proseslərə də müsbət təsir göstərir.

1 yanvar 2019-cu il tarixə muxtar respublikada əhalinin sayı 2008-ci ilin sonu ilə müqayisədə 58 min 746 nəfər artaraq 456 min 93 nəfər olmuşdur. Əhalinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edib. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 83 nəfər olmuşdur ki, bu da 2008-ci ilin sonu ilə müqayisədə 11 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı Naxçıvan şəhərində bir kvadratkilometrə 489 nəfər düşür.

2018-ci ildə muxtar respublikada 5305 nəfər doğum qeydə alınmış, doğulanların 2795 nəfərini və ya 52,7 faizini oğlanlar, 2510 nəfərini və ya 47,3 faizini isə qızlar təşkil edib. Doğulanlardan 52-si əkiz, 1-i isə üçəm olub. 2018-ci ildə muxtar respublikada doğulan oğlanlarda Yusif, Əli, Məhəmməd, Hüseyn və Uğur, qızlarda isə Zəhra, Fatimə, Zeynəb, Damla və Məryəm adları üstünlük təşkil edib. Ümumilikdə, son 10 ildə muxtar respublikada 79 min 410 uşaq doğulmuşdur.

2018-ci ildə muxtar respublikada 2600 nikah bağlanmış, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28 yaş, qadınlarda isə 23,6 yaş təşkil edib. 2009-cu ildən 1 yanvar 2019-cu il tarixə muxtar respublikada 30 min 471 nikah qeydə alınmışdır.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm göstəricisinin aşağı salmışdır. Belə ki, əgər 2008-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfərinə hesabı ilə 5,6 nəfər olmuşdursa, hazırda bu göstərici 4,5 nəfər təşkil edir.

1 yanvar 2019-cu il tarixə muxtar respublikada gənclərin sayı 140 min 477 nəfərə çatmışdır ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir.

Muxtar respublikada əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu daha geniş məlumatların əldə edilməsi məqsədilə növbəti siyahıyaalma cari il oktyabr ayının 1-dən 10-dək keçiriləcəkdir. Ölkə Prezidentinin müvafiq fərmanına əsasən keçiriləcək əhalinin siyahıya alınmasında əldə olunacaq yeni məlumatlar iqtisadi təhlillərin və sosioloji tədqiqatların aparılmasına geniş imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Xalqımızın dövlətçilik məbədi: HEYDƏR ƏLİYEV MUZEYİ

## *Bu məbəddə Vətənə məhəbbətin, milli dövlətçilik ənənələrinə sədaqətin saysız-hesabsız nümunələri vardır*

*Naxçıvan şəhərinin baş meydanında öz əzəməti ilə ilk baxışda diqqəti cəlb edən bir bina var. Gözəl memarlıq quruluşu və dizayna malik bu binada xalqımızın ümummilli liderinin həyat və fəaliyyətini özündə əks etdirən Heydər Əliyev Muzeyi yerləşir. Hazırda ölkəmizdə dahi şəxsiyyətin adını daşıyan onlarla muzey və mərkəz fəaliyyət göstərsə də, bunlar içərisində Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyi xüsusi yer tutur.*



Muzeyi digərlərindən fərqləndirən isə odur ki, bu mədəniyyət müəssisəsi ulu öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycanın rəhbəri kimi qurub-yaratdığı, 90-cı ildən isə qoruyub saxladığı və sonrakı illərdə himayəsi ilə günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılmışdır. Digər fərq isə ondan ibarətdir ki, bu muzey ümummilli liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir.

Bu il Heydər Əliyev Muzeyinin yaradılmasının 20 ili tamam olur. Artıq 20 ildir ki, muzeyə gələn çoxsaylı tamaşaçılar Türk dünyasının böyük oğlu, dünya şöhrətli siyasətçi, canı qədər sevdiyi Azərbaycanı yenidən öz xalqına bəxş edən dahi Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında maraqlı məlumatlar əldə edirlər və həm də Azərbaycanın tarixini, mədəniyyətini, bir sözlə, dününini və bu gününü öyrənirlər.

Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla Naxçıvan şəhərində yaradılmışdır. Bu sərəncamın imzalanması Heydər Əliyev şəxsiyyətinə olan sonsuz ehtiramın bariz nümunəsi kimi tarixi, siyasi və mənəvi zərurətdən irəli gəlmişdir. Sərəncamın imzalanmasından ötən qısa zamanda Naxçıvan şəhərinin mərkəzində Heydər Əliyev Muzeyi yaradılmış və muzey 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır.

Dünyada yaşayan xalqların böyüklüyü sayına və yaxud yaşadığı regiona görə müəyyən edilmir. Hər bir xalqın böyüklüyü onun tarixdə qoyduğu izlərlə, yaratdığı mədəniyyətlə, yetişdirdiyi dahi şəxsiyyətlərlə ölçülür. Eyni zamanda belə xalqların bir xalq kimi formalaşmasında həmin şəxsiyyətlərin böyük rolu olur. Buna görə də hər bir xalq onun tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq onlara həsr edilmiş müxtəlif xatirə kompleksləri və muzeylər yaradır, adını park və meydanlarda, küçələrdə əbədiləşdirirlər. Belə şəxsiyyətlərin həyatı və fəaliyyəti tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılır, böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində bu dəyərlər əsas meyar kimi təbliğ edilir. Xalqımızın tarixi taleyində mühüm və əvəzolunmaz rol oynayan ulu öndər Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Vurğulamaq yerinə düşər ki, ümummilli liderin adının əbədiləşdirilməsi prosesi də ilk dəfə Naxçıvanda başlanmışdır. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1983-cü il 7 may tarixli fərmanı ilə Ona ikinci dəfə “Sosialist Əməyi Qəhrəmanı” adı verilmiş və bundan sonra ilk dəfə olaraq doğulub boya-başa çatdığı Naxçıvan şəhərində – Əcəmi seyrəngahında büstü ucaldılmışdır. 1996-cı il may ayının 10-da isə “Naxçıvan” Sərhəd Dəstəsinin qərargahı önündə ulu öndərin büstünün açılışı olmuşdur. Həmin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“...Bu gün biz, sadəcə olaraq, öz istəyimizi, məhəbbətimizi və onun gördüyü işləri qiymətləndirmək naminə bu***



***kiçik işləri burada, Naxçıvan Muxtar Respublikasında həyata keçiririk... Dünya siyasət məktəbində, dünya kəşfiyyat məktəblərində böyük bir Heydər Əliyev kursu keçilir. Nəyə görə bizim özümüzdə bunlar olmamalıdır?.. Ancaq biz etməliyik. Bizim – naxçıvanlıların buna daha çox haqqı var. Haqqı var, həm də mənən borclarıdır. İnsanlara sağlığında qiymət vermək lazımdır...”***

Muxtar respublika rəhbərinin həmin dövrdə söylədiyi bu fikirlər zaman keçdikcə öz təsdiqini tapmış, bu sahədə görülən işlərin məntiqi davamı kimi 1999-cu ildə yaradılan Heydər Əliyev Muzeyi dahi şəxsiyyətin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürmüş və bu gün də həmin missiyanı uğurla həyata keçirir. Artıq 20 ildir, fəaliyyət göstərən Heydər Əliyev Muzeyi həm naxçıvanlıların, həm də bu qədim Azərbaycan diyarına üz tutan qonaqların ən çox ziyarət etdiyi ünvanlardan birinə çevrilmişdir. Muzeydəki eksponatları, sadəcə, seyr edib keçmək mümkün deyil. Çünki buradakı hər eksponatın özü bir tarixdir, həm də bu tarix təkcə Azərbaycanla məhdudlaşmır, Azərbaycanı dünyaya, dünyanı isə Azərbaycana bağlayan tellərin yaddaşlara köçürdüyü böyük bir səhifədir. Və hər səhifənin altında da mənalı ömrünü xalqına, onun gələcək taleyinə həsr etmiş dahi Heydər Əliyevin imzası var. Bəlkə də, buna görədir ki, dinindən, dilindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, muzeyə gələn bütün tamaşaçılar buradakı eksponatlara maraqla baxır, Heydər Əliyev şəxsiyyətinin ucalığının bütün dövrlər və xalqlar üçün dəyərli olduğunu dərk edirlər.

Yaradıldığı dövrdən bu günədək muzeyi 308 mindən çox tamaşaçı ziyarət etmişdir ki, bu ziyarətçilərin 35 mindən çoxu xarici ölkə vətəndaşı olmuşdur.

Vurğulayaq ki, ümummilli lider Heydər Əliyev də 1999-cu il oktyabrın 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək bu mədəniyyət müəssisəsinin ekspozisiyası ilə tanış olmuşdur. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar hazırda burada nümayiş etdirilir. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılmış, hər mərhələ, hər bir tarixi hadisə ilə bağlı dahi



şəxsiyyətin fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları ekspozisiyada öz əksini tapmışdır. Ulu öndərin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada Onun uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. 420 eksponatla fəaliyyətə başlayan muzeydə 2018-ci il dekabrın 25-nə eksponat sayı 4746 olmuşdur. Həmin eksponatların 542 ədədi ekspozisiyada, 2833 ədədi kitabxanada, 1334 ədədi muzey fondunda yerləşdirilmişdir. Buradakı kitabxanada isə 650 adda 1300-dən çox kitab saxlanılır. Qeyd edək ki, fəaliyyət göstərdiyi dövrdə muzeyin maddi-texniki imkanlarının genişləndirilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, 2005-2006-cı illərdə əsaslı şəkildə yenidən qurulan muzey binası 2006-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. 564 kvadratmetrlik ekspozisiya zalından ibarət muzeyin kompozisiya, dizayn, işıq və ornament tərtibatı yüksək zövqlə işlənmişdir. Burada tamaşaçılara lazımi muzey xidməti göstərmək üçün kitabxana yaradılmış, ulu öndərimiz haqqında çəkilmiş filmləri seyr etmək üçün monitor yerləşdirilmiş, kompüter dəstləri quraşdırılmış, muzeyin *(www.aliyev-museum.nakhchivan.az)* internet saytı yaradılmışdır.

Bəli, Heydər Əliyev Muzeyi ölkəmizdə analoqu olmayan bir elmi-mədəni müəssisədir. Bu müəssisə tədqiqatçılar üçün zəngin mənbədir. Çünki Azərbaycanı tanımaq elə dahi Heydər Əliyevin həyat və fəaliyyəti ilə yaxından tanış olmaq və yaxud ümummilli liderimizin irsini öyrənmək elə Azərbaycanı, onun tarixini, mədəniyyətini öyrənmək deməkdir. Bu mənada, muzeydəki hər bir eksponat ayrılıqda elmi-tədqiqat mövzusudur. Heydər Əliyev Muzeyi, eyni zamanda xalqımızın dövlətçilik məbədidir. Bu məbəddə Vətənə məhəbbətin, milli dövlətçilik ənənələrinə sədaqətin saysız-hesabsız nümunələri var. Bütün bu parametrlərinə görə Heydər Əliyev Muzeyində nümayiş etdirilən eksponatlar yaradıcı insanlar üçün ilham mənbəyi, elm adamları üçün isə dəyərli məlumatlar toplusudur. İl ərzində burada ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə bağlı aidiyyəti təşkilatlarla elmi konfranslar keçirilir, muzeyə tələbələrin və məktəblilərin ekskursiyaları təşkil olunur, onlar üçün lektoriyaların və açıq dərslərin keçilməsi təmin edilir.

Təkcə 2018-ci ildə Heydər Əliyev Muzeyini 16 min 815 tamaşaçı ziyarət etmişdir ki, bunların da 11 min 893 nəfəri yerli, 4922 nəfəri xarici ölkələrdən gələn qonaqlar olmuşdur. Muzeydə olan tamaşaçılara Azərbaycan və ingilis dillərində 1744 ekskursiya keçirilmişdir. Ötən il muzeyi internet üzərindən ziyarət edən tamaşaçıların sayı 14 min 253 olmuşdur.

*Muzeyi ziyarət edən qonaqlar sonda “Xatirə kitabı”na öz ürək sözlərini yazırlar. Bu kitabda müxtəlif ölkələrin dövlət başçılarından tutmuş hökumət rəhbərlərinədək, beynəlxalq təşkilatların rəhbərlərindən tutmuş Azərbaycanda akkreditasiya olunmuş xarici ölkələrin səfirlərinədək çox insanın imzası var. Mən isə yazıya muzeyi ziyarətdən sonra “Xatirə kitabı”na öz düşüncələrini qeyd etmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə son vermək istərdim:* ***“...Ulu öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər. Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır”.***

**Səbuhi HƏSƏNOV**

# İranlı qonaqlar Əshabi-Kəhf ziyarətgahı və Duzdağda olublar



Fevralın 28-də İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin rəhbərlik etdiyi nümayəndə heyəti “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində olublar.

Qonaqlara Əshabi-Kəhfin sirli tarixi haqqında məlumat verilib, Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyətindən bəhs olunub.

* * *

İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktorunun mədəniyyət və turizm üzrə müavini Hüseyn Həmzəli “Şərq qapısı” qəzetinə müsahibəsində deyib: “Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə – iqtisadi, turizm, mədəniyyət, idman və digərlərində müşahidə olunan inkişaf bizi çox sevindirir.

Muxtar respublikaya səfər zamanı bir çox sahələrdə əməkdaşlıq imkanlarının mövcud olduğunu gördük”.

Qonaq vurğulayıb ki, bu istiqamətdə keçirilən yüksək səviyyəli görüşlərdə müzakirələr aparılıb. Ümidvaram ki, gələcəkdə bütün sahələrdə bizim əlaqələrimiz daha da genişləndiriləcək, qarşılıqlı əməkdaşlıq hər iki xalqın rifahına xidmət edəcəkdir.

Hüseyn Həmzəli deyib: “Naxçıvan qədim tarixə malik olduğuna görə burada turizm sahəsinin inkişaf etdirilməsi üçün çox böyük perspektiv var. Naxçıvan çoxsaylı tarixi abidələrə, gözəl təbiətə malikdir, həm də bu sahənin inkişafı üçün burada lazımi infrastruktur qurulub”.



O bildirib ki, Naxçıvandakı Duzdağ Fizioterapiya Mərkəzi dünyada tayı-bərabəri olmayan bir yerdir. Mərkəzdə insanların heç bir dərman preparatlarından istifadə etmədən, təbii şəkildə müalicə ala bilməsi çox gözəldir. “Duzdağla tanışlıq zamanı bunun üçün yüksək səviyyədə şərait yaradıldığının şahidi olduq”, – deyən Hüseyn Həmzəli Naxçıvanda olduqları iki gün ərzində onlara xoş münasibət və qonaqpərvərlik göstərildiyini vurğulayıb, buna görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**Tural AĞAYEV**

1 Mart Ümumdünya Mülki Müdafiə günüdür

# Mülki müdafiə müasir tələblər səviyyəsindədir

*Hər il mart ayının 1-i "Ümumdünya Mülki Müdafiə Günü" kimi qeyd edilir.*

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", həmin il dekabrın 30-da isə "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuş, bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addımlardan biridir. Ötən dövrdə Ali Məclis Sədrinin qayğısı ilə Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək rayon şöbələri, 2014-cü ildə isə Sədərək rayon şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmiş, təlim mərkəzində vertolyot meydançası tikilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkənlərə ilk yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Muxtar respublika ərazisində baş vermiş təbii, texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və "112" qaynar telefon xətti yaradılmışdır. Bundan başqa, muxtar respublikada tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin nəzdində mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazlarla təchiz edilmişdir.

Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə şəxsi heyətin istifadəsinə verilmişdir.

Fövqəladə hallar zamanı təxliyə olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Mülki Müdafiə Alayında mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılmış, Şərur, Sədərək, Ordubad və Culfa şəhərlərində yaşayış binalarının zirzəmiləri təmir edilərək fərdi mühafizə vasitələri anbarı kimi uyğunlaşdırılmış, Babək və Qıvraq qəsəbələrində yeni tikilən binaların zirzəmilərində səfərbərlik ehtiyat anbarları yaradılmış və əhalinin yaş kateqoriyasına uyğun mühafizə vasitələri tədarük olunaraq rayon fövqəladə hallar komissiyalarına təhvil verilmişdir. Muxtar respublika ərazisində radioaktiv, kimyəvi və bioloji çirklənmə şəraitində nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları alınıb gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislər treninqlərdə iştirak edərək müvafiq sertifikatlar almışlar.

Muxtar respublikanın şəhər və rayonlarında əhalinin mühafizəsi üçün yararlı olan 115 ictimai yaşayış və 305 inzibati binanın zirzəmisinin vəziyyəti yoxlanılmış, qeydiyyata götürülmüş 124 binanın zirzəmisinin plan-sxemi və pasportu hazırlanmışdır. Həmçinin içməli su mənbələrində monitorinqlər keçirilərək sanitar-gigiyena norma və qaydalarına əməl edilməsinə nəzarət olunmuş, çay hövzələrində selə qarşı tikilən bəndlərin, suburaxıcı və selötürücü qurğuların vəziyyəti yoxlanılmış, irihəcmli su anbarlarında bəndlərin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 iyul tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada 122 obyektin fövqəladə hallara hazırlıq vəziyyəti yoxlanılmış, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Eyni zamanda muxtar respublikada mülki müdafiə işinin təşkili ilə bağlı 2 xəstəxanada təlim, 7 obyektdə əməli məşğələ, 2 obyektdə konfrans, 318 obyektdə yoxlama keçirilmiş, 12 tibb müəssisəsində həkim yardım briqadalarının hazırlığı təmin edilmiş, 402 obyektdə 12 min nəfərin iştirakı ilə maarifləndirici tədbir, 20 ümumtəhsil məktəbində 2161 şagirdlə nümunəvi dərslər keçilmişdir.

Şəxsi heyətin peşəkarlığının artırılmasında mütəxəssis hazırlığına xüsusi diqqət verilərək ötən il 2 xilasedici qar uçqunlarında axtarış-xilasetmə işlərinin aparılması üzrə Qəbələ rayonunda keçirilən təlimə, 1 zabit NATO-nun Avro-Atlantik Təbii Fəlakətlərə Cavabvermə üzrə Koordinasiya Mərkəzi və Serbiya Respublikasının birgə təşkilatçılığı ilə keçirilən genişmiqyaslı beynəlxalq sahə təliminə, 2 zabit isə Şirvan şəhərində keçirilən təlimə cəlb olunmuşdur. Xilasedicilərin, kinoloqların və xüsusi təyinatlı itlərin hazırlığı Culfa dəmiryol qovşağında keçirilən taktiki-xüsusi təlimdə, xilasedici dalğıcların peşə hazırlığı isə Uzunoba Su Anbarında keçirilən 2 günlük təlimdə təkmilləşdirilmişdir.

*Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində səylə çalışacaq, muxtar respublikada mülki müdafiə işi müasir tələblər səviyyəsində qurulacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Universitetin beynəlxalq əlaqələri genişlənir

Bu günlərdə Bakı Biznes Universitetinin kordinatoru olduğu EQAC –Erasmus Plus layihəsinin İngiltərənin Middlesex Universitetində təşkil edilən növbəti treninqində partnyor universitet kimi "Naxçıvan" Universitetini təmsil edən rektor, professor İsmayıl Əliyev və bir qrup əməkdaş da iştirak ediblər.

Layihənin məqsədi Azərbaycan universitetlərində keyfiyyətə nəzarət mərkəzinin yaradılması və bu mərkəzlərin fəaliyyətinin Avropa standartlarına uyğun formalaşdırılmasıdır.

Təlimin sonunda Azərbaycandan olan universitetlərin əməkdaşlarına treninqi uğurla başa vurduqlarına görə sertifikatlar təqdim edilib. Bundan başqa, təlim çərçivəsində "Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyevlə Middlesex Universitetinin vitse-konsleri Tim Blackman arasında görüş olub, qarşılıqlı əməkdaşlığa dair söhbətlər aparılıb.

**Nuray ƏSGƏROVA**

Yeni nəşrlər

# Ağı janrının poetikası haqqında funksional tədqiqat

***Bu günlərdə Naxçıvan Dövlət Universitetinin müəllimi, folklorşünas alim, filologiya üzrə fəlsəfə doktoru Sədaqət Nemətovanın "Ağı janrı: funksiya və poetik imkanlar" adlı monoqrafiyası nəşr edilib. Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə çap olunan monoqrafiyanın elmi redaktoru akademik Muxtar İmanovdur.***




Giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət monoqrafiyanın girişində bu janrın dünya və Azərbaycan folklorunda tutduğu yer qeyd edilib, həmçinin janrın sistemli şəkildə öyrənilməsi probleminin xalq yaradıcılığının mərasim qanadının da müəyyən mənada tədqiqində əhəmiyyəti vurğulanıb. Folklorşünaslıq elmi tariximizdə bu janr ayrıca elmi tədqiqata cəlb edilmədiyindən əsərin mahiyyəti öz yeniliyi və aktuallığı ilə diqqət çəkir.

Müəllif janrın əhatəli öyrənilməsi zamanı, ilk növbədə, ağı mətnlərini tədqiqata cəlb edib. Bu zaman həm şifahi xalq yaradıcılığında toplama zamanı qeydə alınan nümunələr öyrənilib, həm də sonrakı mərhələlərdə yazılı şəkildə yaranan və ortaya çıxan ağılar tədqiq olunub.

Monoqrafiyada Azərbaycan bədii və ictimai-fəlsəfi düşüncəsinin qaynağı, bənzərliyi baxımından ağı janrının tarixi-poetik səciyyəsi müəyyən edilib, janrın mərasimlə bağlı aspektlərinə işıq tutulub, qohum və qohum olmayan xalqların elegiyatipli janrları ilə müqayisədə ağının fəlsəfi-poetik özünəməxsusluğu aşkara çıxarılıb, eyni zamanda bu deyilənlərdən yola çıxaraq ağının dil, fikir və sənət hadisəsi kimi poetikası müəyyən edilib.

Monoqrafiyada ağının ədəbi janr kimi çəkisi, yeri və mahiyyəti müxtəlif mənbələrə istinadlarla, həmçinin şəxsi təhlil nəticəsi kimi ortaya qoyulur. Bununla bərabər, qədim türk dastanlarındakı ağı nümunələri ilə digər türk xalqlarındakı ağılar arasında müqayisələr aparılır. Tədqiqatçı ağı mətnlərində bölgə ilə bağlı məqamlara da diqqət çəkir.

Müəllif belə bir nəticəyə gəlir ki, ta qədim zamanlardan bu günədək yas mərasimlərində icra olunan elementlər hələ də yaşadılmaqdadır. Bu elementlərdən biri də, heç şübhəsiz, ağı söylənilməsidir. Maraqlı məqamlardan biri də İslamın yaranmasından sonrakı dövrdə ortaya çıxan mərsiyəçiliyin mərasim folklorunda ağı ilə qarşılıqlı münasibətdə öyrənilməsidir.

Monoqrafiyada qeyd olunduğu kimi, janrın yaranma tarixi çox qədimdir, məzmununa görə də müxtəlif tiplərə ayrılır, bir neçə qrupa bölünür. Həmçinin ağılar poetik baxımdan bayatılarla müqayisə oluna bilər.

Müəllif, eyni zamanda Azərbaycanın ictimai-siyasi həyatında baş verən bir sıra hadisələrə, həmin hadisələrlə bağlı yaranmış yazılı nümunələrə də müraciət edir, həmçinin bölgə yazarlarının əsərlərinə istinad etməklə fikirlərini ortaya qoyur. Belə bir nəticə də diqqəti cəlb edir ki, yazılı və şifahi ədəbiyyatın qarşılıqlı münasibətləri zamanı fərqli janrlar daxilində də ağıların ortaya çıxması prosesi baş verə bilər.

Monoqrafiyanın nəticə hissəsində filologiya üzrə fəlsəfə doktoru Sədaqət Nemətovanın öz tədqiqatlarının sonunda ortaya çıxardığı yeniliklər, əldə etdiyi yeni nəticələr öz əksini tapıb.

Ümumiyyətlə, "Ağı janrı: funksiya və poetik imkanlar" monoqrafiyası şifahi xalq ədəbiyyatının daha bir janrının əhatəli öyrənilməsinə həsr edilib. Digər cəhətdən janrın tarixi inkişaf prosesini, sonrakı mərhələdə yazılı ədəbiyyatda da öz yerini möhkəmləndirməsi məsələləri ortaya qoyulur. Bu əsər həm folklorşünaslar, həm də ali məktəblərin müvafiq ixtisaslarında təhsil alan tələbələr üçün maraqlı mənbə rolunu oynayacaqdır. Eyni zamanda folklorşünaslıqda müxtəlif xalqların şifahi yaradıcılığı ilə qarşılıqlı müqayisələrin aparılmasında istinad ediləcək elmi əsər kimi mühüm rol oynayacaqdır.

**Elxan YURDOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru***

# Endokrinologiyanın aktual problemlərinə aid elmi-praktik konfrans

*Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Endokrinologiyanın aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə sisteminin inkişafına dövlət qayğısından danışıb, digər sahələr kimi, endokrinologiya sistemində də mühüm irəliləyişlərə nail olunduğunu qeyd edib. Bildirib ki, son illər ölkəmizdə şəkərli diabetin müalicə və profilaktikası istiqamətində mühüm tədbirlər görülüb. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanun, 2006-2010-cu, 2011-2015-ci və 2016-2020-ci illəri əhatə edən "Şəkərli diabet üzrə Dövlət Proqramı" qəbul edilib. Muxtar respublikamızda da görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Hazırda muxtar respublikada şəkərli diabet xəstələrinə şəkərölçmə cihazı, test çubuqları və dərmanlar pulsuz verilir.



Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostika və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə altı ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur.

Sonra Bakı şəhərində tibbi fəaliyyət göstərən Endokrinoloji Mərkəzin həkim-endokrinoloqu, tibb üzrə fəlsəfə doktoru Nərminə Hüseynovanın qalxanabənzər vəzin xəstəlikləri zamanı yaranan müxtəlif reproduktiv pozulmalar və şəkərli diabet və xroniki venoz çatışmazlığı ilə bağlı məruzəsi dinlənilib.

Mütəxəssis şəkərli diabetin tipləri, risk faktorları, diaqnostikası, dərman vasitələrinin seçilməsi və müalicə işinin təşkilində müasir üsullar barədə məlumat verib.

Konfransın sonunda müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Qida təhlükəsizliyinin təmin olunması gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətlərindəndir

*Əhalinin təhlükəsiz qida məhsulları ilə etibarlı təminatı muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca prioritetlərindən biridir. Gömrük orqanları tərəfindən daxili bazarın qorunması istiqamətində görülən işlər və Naxçıvan Gömrük Ekspertizası İdarəsinin sınaq laboratoriyasının fəaliyyəti muxtar respublikamızda əhalinin təhlükəsiz ərzaq məhsulları ilə təminatında mühüm rol oynayır.*





2012-ci ildən fəaliyyət göstərən Naxçıvan gömrük laboratoriyası İSO 17025 standartının tələblərinə uyğun olaraq akkreditasiyadan keçib. Burada dünyanın nüfuzlu firmalarının istehsalı olan ən müasir cihazlar quraşdırılıb. Yüksəkixtisaslı kadrlarla təmin olunan sınaq laboratoriyasında keyfiyyət göstəricilərinin təyini üzrə analizlər aparılır, o cümlədən avtonəqliyyat vasitələrinin ekoloji sinfi müəyyən edilir. Naxçıvan Gömrük Ekspertizası İdarəsi gömrük rəsmiləşdirilməsi zamanı şəxslərin müraciətləri əsasında Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə kodların təyin olunması işini də həyata keçirir.

Naxçıvan Muxtar Respublikası ərazisinə idxal olunan mallardan standartlara uyğun şəkildə götürülən prob və nümunələr onlayn müraciət sistemində qeydiyyata alınaraq laboratoriyaya göndərilir. Nümunələrin qeydiyyatı ilə yanaşı, müraciətlərin qəbulu və ekspertizanın nəticələrinə dair protokolun verilməsi prosesi də elektronlaşdırılıb. Göstəricilərin təyin olunması ölkə ərazisində qüvvədə olan standartlara, nümunənin texniki şərtnaməsinə, sanitariya-epidemioloji qaydalara və normativlərə əsasən müəyyən edilir.

Malların keyfiyyət göstəricilərinin yoxlanılması spektrometriya, xromatoqrafiya, atom-adsorbsiya və fiziki-kimyəvi analizlər üzrə aparılır. Laboratoriyada geni modifikasiya olunmuş məhsulların, həmçinin kanserogen maddələr olan mikotoksinlərin təyin edilməsi, konservant maddələr olan benzoy və sorbin turşularının miqdarının yoxlanılması, bütün növ ərzaq məhsullarında 16 adda ağır metalın miqdarının müəyyən olunması mümkündür.

Demək olar ki, idxal istiqamətində gətirilən bütün növ ərzaq məhsulları gömrük ekspertizasına cəlb olunur və bu sahədə elektron baza formalaşdırılır. Analizi həyata keçirilən ərzaq və qida məhsullarına misal olaraq, alkoqollu və alkoqolsuz içkiləri, ət və ət məhsullarını, dənli bitkiləri və taxılı, süd və süd məhsullarını, konservləri, quru meyvələri, bitki və heyvan mənşəli yağları, un məmulatlarını, qənnadıları, uşaq qidalarını və digərlərini göstərmək olar.

Son illər ərzində ərzaq məhsulları üzərində aparılmış gömrük ekspertizasının nəticələri göstərir ki, qida təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər nə qədər əhəmiyyətli və aktualdır. Bunu muxtar respublikanın istehlak bazarlarında satışı həyata keçirilən müxtəlif markalı kərə, zeytun və qarğıdalı yağlarından götürülmüş nümunələrin analizi bir daha göstərdi. Analizlərin nəticələrinə görə, əslində, zeytun yağı olmayan, yəni tərkibində digər bitki yağları və bəzi hallarda müxtəlif qarışıqlar olan 17 adda zeytun yağı markası müəyyən olundu və həmin yağların idxalı qadağan edildi.

Ərzaq məhsullarından başqa muxtar respublikamıza idxal olunan yuyucu vasitələrin və uşaq oyuncaqlarının da keyfiyyət göstəricilərinin standart normalara uyğun olmadığı hallar müəyyən edilib. Əsasən, Çin istehsalı olan uşaq oyuncaqlarının güclü yanıcılıq qabiliyyətinə və kəskin qoxuya malik olduğu, hazırlanmasında zərərli boyalardan istifadə edildiyi aşkarlanıb. Saxta etiketlənmə və markalanma, məhsulun keyfiyyətinin aşağı olması kimi hallar isə yuyucu vasitələrin ekspertizası zamanı ortaya çıxan mənfi nəticələrdir.

Ümumilikdə, ötən il ərzində keyfiyyət göstəricilərinin təyini ilə bağlı 877 müraciət üzrə 8623 ton məhsuldan alınan prob və nümunələrin ekspertizası göstərir ki, xaricdən muxtar respublikamıza saxta və keyfiyyətsiz qida məhsullarının gətirilməsinə müəyyən cəhdlər edilir. 2018-ci ildə 93 tondan artıq kənd təsərrüfatı, ərzaq və digər məhsulların muxtar respublika ərazisinə buraxılmadan geri qaytarılmasının təmin olunması da deyilənləri təsdiqləyir. Daxili bazarın və istehlakçıların hüquqlarının qorunması, əhalinin təhlükəsiz qida məhsulları ilə təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində ayrı-ayrı vətəndaşlardan saxlanılmış ümumi çəkisi 11 tondan artıq ərzaq məhsulunun isə yandırma üsulu ilə məhv edilməsi həyata keçirilib.

Onu da qeyd edək ki, Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən nəinki ölkəyə idxal olunan malların, həmçinin Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sifarişi əsasında yerli istehsal məhsullarının keyfiyyət göstəriciləri də yoxlanılır. 2018-ci il ərzində çörək, su, bitki və heyvan mənşəli yağlar, spirtli və spirtsiz içkilərin ekspertizasının aparılması yerli məhsulların keyfiyyətinin nəzarətdə saxlanılmasına xidmət edir.

Təbii ki, muxtar respublikamızda əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması qida təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi baxımından da əhəmiyyətlidir. Çünki idxal məhsulları ilə müqayisədə yerli istehsal sahələrində ekoloji cəhətdən təmiz və keyfiyyətli məhsul istehsalına nail olmaq və bu sahədə səmərəli nəzarət mexanizmi formalaşdırmaq daha asandır. Daxili bazarın qorunması ilə əhalinin qida məhsullarına olan təminatı böyük ölçüdə yerli məhsullar hesabına ödənilir, həmçinin yerli məhsulların ixrac potensialı və brendləşməsi üçün imkanlar yaranır. Özəl sektora göstərilən dövlət qayğısı muxtar respublikamızda çoxsaylı sahibkarlıq subyektlərinin fəaliyyətini və inkişafını şərtləndirir. Yeni istehsal müəssisələrinin istifadəyə verilməsi hesabına hazırda muxtar respublikamızda 126 növdə 570 çeşiddə ərzaq məhsulu istehsal olunur. 108 növdə ərzaq məhsuluna olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Təbii ki, qida təhlükəsizliyinin təmin edilməsində həyata keçirilən dövlət tədbirləri ilə yanaşı, ərzaq məhsullarının istehsalçıları, emalçıları, ərzaq məhsullarının ticarəti ilə məşğul olan təsərrüfat subyektlərinin üzərinə də böyük məsuliyyət düşür. Məhz ərzaq istehsalı zəncirinin bütün iştirakçıları qida təhlükəsizliyinə görə cavabdehdirlər. Buna görə də istehsalçılar və ticarətçilər öz fəaliyyətlərində qida məhsullarının təhlükəsizliyini əsas tutmalı, istehlakçılara sağlam və keyfiyyətli məhsulların çatdırılmasını özlərinin vicdan məsələsi hesab etməli və bunu başlıca öhdəlikləri kimi layiqincə yerinə yetirməlidirlər.

Gömrük orqanları əhalinin təhlükəsiz qida məhsulları və digər keyfiyyətli mallarla etibarlı təminatı istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# İdmançılara yüksək səviyyəli tibbi xidmət göstərilir



Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində yaşamasına baxmayaraq, son 30 ilə yaxın bir müddətdə burada digər sahələr kimi, idmanın inkişafı istiqamətində də əhəmiyyətli uğurlar qazanılıb. Aparılan məqsədyönlü idman siyasətinin əsasını idmanın kütləviliyini təmin etmək təşkil edir. Gənclərin bu sahəyə axını onların sağlamlığını qorumaq, idmanla müntəzəm məşğul olmaları üçün əvvəlki sağlamlıqlarını bərpa etmək kimi zəruri məsələni də gündəmdə saxlayır. Bunu nəzərə alıb Naxçıvan Muxtar Respublika Xəstəxanasında fəaliyyət göstərən İdman Tibb Mərkəzində yaradılan şərait və idmançılara göstərilən tibbi xidmətin keyfiyyəti barədə məlumat almaq üçün bu ünvana yollandıq. İlk olaraq müasir texnologiyalarla təchiz edilmiş mərkəzdə yaradılan şəraitlə yaxından tanış olduq.

Altı otaqdan ibarət olan tibb mərkəzində direktor, ordinator, tibb bacısı, təsərrüfat, müayinə və lazer aparatı otaqları fəaliyyət göstərir. Buradakı avadanlıqlar tibb elminin ən son nailiyyətlərinə əsaslanır.

İdman Tibb Mərkəzinin həkim-fizioterapevti Eldəniz Qurbanov idmançılara göstərilən tibbi müayinə haqqında danışaraq dedi ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da idmana dövlət tərəfindən yüksək qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin İdman Tibb Mərkəzi idmanla məşğul olan yeniyetmə və gənclərə, peşəkar idmançılara tibbi yardım göstərir. Təəssüf ki, bu gün bəzi gənclərin və idmançıların bədənlərinin müxtəlif nahiyələrində tatuların (döymələrin) olmasına təsadüf olunur. Bu tatuların silinməsi üçün mərkəz xüsusi lazer aparatla təchiz edilib. Hər bir pasiyentin döymədən tam azad olması üçün aparılan prosedur ayda bir dəfə olmaqla, 7-8 seansdan ibarətdir. Bundan başqa, İdman Tibb Mərkəzində Compex fizioterapiya aparatı da vardır. İdmançılarımızın məşqlər və yarışlar zamanı aldıqları zədənin tezliklə bərpası üçün bu aparat vasitəsilə reabilitasiya həyata keçirilir. Bununla yanaşı, mərkəz lazımi dərman preparatları və tibbi ləvazimatlarla da təchiz olunur. İdman yarışlarında həkim briqadamız tərəfindən idmançılara xidmət göstərilir.

Mərkəzə daha çox azyaşlı uşaqlar müraciət edirlər. Buna səbəb əksər hallarda onlarda müəyyən zədələrin olmasıdır. Eldəniz Qurbanov vurğuladı ki, uşaqların həkim məsləhətlərinə laqeyd yanaşmaması üçün müəyyən işlər görülür. İdman Tibb Mərkəzində idmançılar üçün həm də maarifləndirmə işi aparılır. Belə ki, idmançının ilk olaraq necə qidalanması, vitaminləşdirilməsi, məşq zamanı itirdiyi kalorinin və enerjinin necə bərpa olunması, sutkalıq yuxu rejimi, istirahət saatı, bədənin necə möhkəmləndirilməsi, idmançının şəxsi gigiyenası onlara öyrədilir. Muxtar respublikamızın idmançıları təlim-məşq toplanışlarında, müxtəlif yarışlara hazırlaşan zaman ağır məşqlər edirlər. Bu isə onlarda əsəbi gərginlik, yorğunluq və stress yaradır. Biz mərkəz olaraq bunları aradan qaldırmağa və idmançılara xidmət göstərməyə çalışırıq.



"Bəs bu gərginliyi necə aradan qaldırmaq olar?" sualımıza həkim-fizioterapevtin cavabı belə oldu: "Mərkəzdə idmançılar üçün idman masajı xidməti də göstərilir. Bu masaj növü idman məşqlərinin ayrıca bir hissəsi sayılır. Bunlar hazırlıq və bərpa masajı olmaqla, iki yerə bölünür. Hazırlıq masajı idmançını yarışa hazırlamaq məqsədi daşıyır. Belə ki, bu masaj əzələ tonusunu yüksəldir, bədənin fiziki gücünü və aktivliyini artırır. Bərpa masajı isə idmançının itirdiyi gücü, enerjini bərpa edir, əzələlərdən gərginlik və yorğunluğu çıxarır, idmançını növbəti məşqlərə və yarışlara hazırlayır".

Eldəniz Qurbanov bildirdi ki, bütün idman yarışlarında İdman Tibb Mərkəzinin həkim briqadası xidmət göstərir. O deyir ki, yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaq durmaları, onların hər zaman idmanla məşğul olmaları həm də sağlamlıqları baxımından tövsiyə olunur. Bəzən müxtəlif səbəblər üzündən azhərəkətli həyat tərzi keçirir və buna bəraət qazandırmağa çalışırıq. Aparılan tədqiqatlar sübut edib ki, fiziki fəallığı yüksək olan şəxslərdə iyirmi yaşdan sonra baş verən qocalma prosesi daha yavaş gedir. Bu tədqiqatlar bir faktı da göstərir ki, fiziki məşqlər edən 65 yaşlı insanın iş qabiliyyəti 35-40 yaşında olan və azhərəkətli həyat tərzi keçirən insanın iş qabiliyyətindən çox-çox yüksəkdir. Fiziki ehtiyatlarımızın tükənməsinə şərait yaradan ən önəmli amil "müasir həyat tərzi"dir. Müasir insanın rahat həyat tərzi fiziki ehtiyatlarımızın azalmasına səbəb olan amildir. Fiziki fəallığın qocalma prosesinin sürətini azaltdığı, müəyyən xəstəliklərin qarşısını aldığı və həyat keyfiyyətini yaxşılaşdırdığı barədə yetərli məlumatlar vardır.

Həkim-fizioterapevt, eyni zamanda idman təbabəti barədə də məlumat verdi: "Ümumiyyətlə, idman təbabətinin müəyyən vəzifələri var. Bunlar idmanla məşğul olmazdan əvvəl tibbi müayinələr vasitəsilə insanların sağlamlıq imkanlarını qiymətləndirmək, müxtəlif idman yarışlarında və məşqlərdə meydana gələn kəskin və xroniki sağlamlıq problemlərinin, həmçinin travmaların diaqnostikasını aparmaq, müxtəlif müayinə üsulları vasitəsilə baş vermiş patologiyaların diaqnozunu dəqiqləşdirmək, tibbi reabilitasiya müalicəsini planlaşdırmaq, tələb olunduqda müxtəlif mütəxəssislərin konsultasiyalarını təşkil etmək və aparılan müayinələrdə fəal iştirak etməkdir. Bunlarla yanaşı, insanların sağlamlığını qorumaq, sağlam həyat tərzini təbliğ etmək məqsədilə əhali arasında maarifləndirmə işi aparmaq da vacibdir".

**Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 164